

**Seyran CAVADOV**

## Ürəklə dostluq

*"Çalış üreynlə dostluq et.
Onda ürəyin ağrımaz".*

**Bir nəfərin dediyindən**

Dedim ki, ağrıyır ürəyim yaman.
Dedi: - Bir anlığa gəl məni dinlə.
Hər gün, hər dəqiqə, hər saat, hər an
Çalış dostluq elə öz ürəyinlə.

Bu sözün zərbəsi bərk tutdu məni,
Yatmışdım, elə bil birdən ayıldım.
O axşam yatmadım bütün gecəni,
Mən özüm özümlə baş-başa qaldım.

Oyandı mürgülü xatirələrim,
Ömrümün ən dərin qatına getdim.
Baxıb arxasınca ötən illərin
Özümü təzədən sanki kəşf etdim.

Fikir karvanına bələdçi oldum,
Suallar yarandı, doğuldu bir-bir.
Onları yüz yerə, min yerə yozdum,
Hər sual ardında müəmmalı sirr...

Düşündüm: "Ürəyim mən deyiləm bəs?!
Necə dostluq edim özüm özümlə?!"
Yenə qulağıma gəldi həmin səs:
-Dinlə ürəyini ağlın gözüylə.

Gördüm ki, bir işə qərar verəndə
Ürəyin hökmüylə ərk eyləmişəm.
İşə bax, işə bax, canda, bədəndə,
Sən demə, sən demə, tək deyilmişəm...

Bizik bel bağlayan gələcək günə,
Dünyanın xeyrinə, şərinə şərik.
Hislər üst gələndə ağlın gücünə
Bəzən özümüz də ikiləşirik.

## Nagüman olma

Əlimin içində çarpaz şırımlar
Ovcumu doğrayır belədən-belə.
Deyirlər, bu çarpaz şırımlar ki var,
Bağlıdır insanın taleyi ilə.

Bilmirəm, doğrudur, yoxsa ki yalan,
Qaraçı deyiləm, yozam mən bunu.
Ovuca sığışan bəxtin, taleyin
Hardan biləsən ki, necədir sonu?!

Ey könül, nagüman olma bu qədər,
Xəyallar, yuxular bəzən düz çıxır.
Belə ki, dünya boyda olan qəm-kədər
Gəlib yumruq boyda ürəkdən keçir.

## Bakıda vizual poeziya sərgisi keçiriləcək

***27-30 sentyabrın tarixlərində Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin iştirakı ilə keçiriləcək "Nəsimi" Şeir, İncəsənət və Mənəviyyat Festivalı çərçivəsində şair, tərcüməçi Səlim Babullaoğlunun "Qrafik şeirlər və esselər: vizual poeziya sərgisi" təşkil ediləcək. Adalet.az Sim-sim.az saytına istinadən xəbər verir ki, sərgi İçərişəhər, Qala küçəsi 42 ünvanında, "Zəncirli mülk" qalereyasında (Arxeologiya və etnoqarfiya sərgisinin binasında, "saatın arxasındakı bina") baş tutacaq.***

***Sərginin rəsmi açılış mərasimi senytabrın 29-da olacaq.***

***İştirak edənlər şeir dinləyə biləcək, kataloq əldə etmək imkanı qazanacaqlar.***

## Viktor Soyun pasportu 9 milyona satıldı

***Mərhum musiqiçi Viktor Soyun pasportu hərracda 9 milyon rubla satılıb.***

***AzNews.azın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, rok musiqiçi bu pasportu 16 yaşı olanda, 8 ay gecikmə ilə alıbmış.***

***Bundan başqa, mərhum musiqiçinin qeyd kitabçası və "Dəyişiklik istəyirəm" mahnısının əlyazması hərraca çıxarılaraq satılıb. Əlyazma üçün 3.6 milyon rubl ödənilib.***